السنّة النبوية وعلومها
www.sunnah.global

# “Allah yaxşı və pis əməlləri yazmış, sonra da bunları bəyan etmişdir

İbn Abbas (Allah onların hər ikisindən razı olsun) rəvayət edir ki, Rəsulullah (sallallahu aleyhi va səlləm) Mübarək və Uca olan Rəbbindən belə rəvayət etmişdir: “Allah yaxşı və pis əməlləri yazmış, sonra da bunları bəyan etmişdir. Kim bir yaxşı iş görməyə niyyət edərsə, sonra bunu etməzsə, Allah onu Öz dərgahında tam bir savab olaraq yazar. Əgər o yaxşı iş görməyə niyyət edərsə, sonra bunu edərsə, Allah onu Öz dərgahında on savabdan yeddi yüzədək, hətta bundan qat-qat artıq savab olaraq yazar. Kim bir pis iş görməyə niyyət edərsə, sonra bunu etməzsə, Allah onu Öz dərgahında tam bir savab olaraq yazar. Əgər o, pis iş görməyə niyyət edərsə və bunu edərsə, Allah onu yalnız bir günah olaraq yazar”.

[Səhih] [رواه البخاري ومسلم في صحيحيهما بهذه الحروف]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, Allah yaxşılıq və pislikləri öncədən müəyyən etmiş və sonra (yazan) iki mələyə onları necə yazacaqlarını bildirmişdir: Kim xeyir əməli etmək istəyib ona niyyətlənər və ona əzm göstərərsə, bu əməli etməsə belə, ona bir savab yazılar, əgər bu xeyir işi edərsə, ona on mislindən yeddi yüz mislinə, hətta daha çox savab yazılar. Savabdakı bu əlavə - qəlbdəki ixlas və faydalı əməllərin dərəcəsinə və miqdarına və buna bənzər əməllərə görədir. Hər kim də, pis əmələ niyyət edər, ona əzm edər, lakin, Allah üçün onu tərk edərsə, Allah bunu onun üçün bir savab olaraq yazar və əgər məşğul olub səbəblərini yerinə yetirmədiyi üçün bu əməli etməzsə, ona heç bir şey yazılmaz. Aciz olub bu əməli etməyi bacarmazsa, niyyətinə görə yazılar. Əgər pis əməli edərsə, onun üçün bir günah olaraq yazılar.

https://sunnah.global/hadeeth/az/show/66533

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee